Xalq qəzeti 24 oktyabr 2023-cü il, çərşənbə axşamı №232.- S.11.

# Heydər Əliyev dühasının nəğmələşən salnaməsi

**“Azərbaycançılığın musiqili təqdimatı” toplusu işıq üzü görüb. Bir çox məşhur mahnının müəllifi olan bəstəkar, şair, ifaçı Bəhram Nəsibovun irsini yaşadan İctimai Birliyin QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə buraxdığı bu jurnal Ulu öndər Heydər Əliyevin 100 illiyinə layiqli töhfədir.**




Nəşrdə Bəhram Nəsibovun müasir Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin hakimiyyətə qayıdışını, nadir şəxsiyyətini və ölməz əməllərini tərənnüm edən şeir, mahnı və marşlar, not yazıları toplanıb.

Musiqi toplusunu vərəqlədikcə Bəhram Nəsibovun bəzi mahnılarını hələ Ulu öndərin sovet dönəmindəki quruculuq işlərindən ilhamlanaraq yazdığı məlum olur. Zamanında ümummilli lider də bəstəkarın “Deyin, hardadır?”, “Naçar gedər” və başqa mahnılarını çox bəyənmişdi. Ulu öndərin xalqın israrlı tələbi ilə hakimiyyətə qayıdışını ilk alqışlayan sənət adamlarından olan Bəhram Nəsibov Məhəmmədhüseyn Şəhriyarın “Heydərbabaya salam” poemasına oxşar şəkildə təbrik şeiri yazaraq mətbuatda çap etdirmişdi:

*Heydər baba, sən bu xalqın babası,*
*Səndən deyir hər bölgəsi, obası.*
*Gey əyninə bir peyğəmbər əbası,*
*Qurtar bizi dərdi-qəmlər əlindən,*
*Alqış sənə Azərbaycan elindən!*

Bəhram Nəsibov daha sonra xalqın duyğu və düşüncələrinin ifadəsi olaraq yazdığı “Min yaşa, Heydər baba” mahnısını tamamlayaraq Zeynəb Xanlarovaya təqdim etməli idi. Amma ağır xəstələndiyi üçün həmin əsər müəyyən müddətdən sonra ifa olunub:

*Gəlişinlə cana gəldi bu ellər,*
*Hünərinə alqış dedi könüllər.*
*Bundan belə daha olmaz qan-qada,*
*Səadətlə ömr eləyər nəsillər.*
*El-obadan güc alıb min yaşa,*
*Heydər baba!*
*Xalqa xilaskar olub, sən yaşa,*
*Heydər baba!..*

Daha sonra qeyd olunur ki, Bəhram Nəsibovun akademik Zərifə Əliyevanın timsalında bütün analara həsr etdiyi “Mənim anam” mahnısı da ulu öndəri çox təsirləndirmişdir. Həmin mahnının ilk ifaçısı – Rəşid Behbudov adına Dövlət Mahnı Teatrının solisti Səttar Nəsirov bu barədə xatirələrində bəhs edib.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə iclas zalına gətirilən və həmin sessiyanın qərarı ilə rəsmiləşdirilən üçrəngli Azərbaycan bayrağının ilk musiqili vəsfi də Bəhram Nəsibova aiddir. Topluda “Azərbaycan bayrağı” adlanan həmin marşla bərabər, sözləri Səttar Zərdablıya və Nazim Tapdıqoğluya aid olan “Heydər bayrağının altından keçək”, eləcə də dahi siyasətçinin Türk dünyası ilə əlaqələrin təməlini qoymasını tərənnüm edən “Azərbaycan və Türkiyə” mahnıları not yazıları ilə birlikdə çap olunub.

“Azərbaycançılığın musiqili təqdimatı”nda, həmçinin Bəhram Nəsibovun Ulu öndərə məhəbbətlə yazdığı və 15 İyun Milli Qurtuluş Günü, Yeni Azərbaycan Partiyasının yaranması da daxil olmaqla əlamətdar tarixlərə həsr etdiyi “Tələb eylə”, “Yeniləşən Azərbaycan” kimi mahnı və marşlar da maraq doğurur.

Azərbaycan Bəstəkarlar İttifaqı mahnı şöbəsinin rəhbəri, bəstəkar Gövhər Həsənzadə “Azərbaycançılığın musiqili təqdimatı” nəşri üçün qələmə aldığı məqalədə Bəhram Nəsibovun əsərlərinin sırf vətənpərvərlik ruhunda olduğunu vurğulayıb: “Bu mahnılarda böyük lider Heydər Əliyevin siyasi fəaliyyəti Azərbaycan xalqının rəmzinə, onun həyat yolu isə Vətənə sədaqət və məhəbbətin nümunəsinə çevrilərək bəstəkarın yaradıcı dili ilə vəsf olunur... Bütün dünya azərbaycanlılarının milli iftixarı – Ulu öndər Heydər Əliyev yaddaşlarda xilaskar və qurucu dövlət xadimi kimi əbədi yaşayacaq. Sözləri və musiqisi Bəhram Nəsibova məxsus olan “Azərbaycan gəncliyi” mahnısı da məhz bu fikirləri parlaq şəkildə özündə əks etdirir”.

Xatırladaq ki, dəyərli nəşrin buraxılmasını təşkil edən “Elm, təhsil, mədəniyyət və azərbaycançılıq ideyasının təbliği məsələləri” layihəsinin rəhbəri bəstəkarın oğlu Adil Nəsibovdur.

**Ə.DOSTƏLİ**
**XQ**